# Sarsılmaz qardaşlığın, birliyin və iqtisadi gücün təntənəsi

**Tarix nədir? Hadisələrin ardıcıl xronologiyası, yoxsa insanlığın yaddaşı, duyğuların, ağrıların, ümidlərin aynası? Əgər tarix sadəcə faktlar toplusu olsaydı, xalqlar arasındakı bağlar kağız üzərində başlayar, oradaca bitərdi. Lakin bəzi münasibətlər var ki, onları nə sərhəd ayıra, nə də zaman köhnəldə bilir.**



Azərbaycanla Türkiyə arasındakı bağ məhz belədir. Coğrafi yaxınlıqdan, ortaq dil və mədəniyyətdən daha dərinə, daha təmənnasız bir sahəyə, insan ruhunun həqiqətinə gedib çıxır. Bu iki xalq zamanın sərt üzünü çox görüb. Bəzən taleləri bir kitabın iki fərqli fəslinə bənzəyib. Bəzən biri bahar günəşinin parlaq şəfəqini izləyərkən, digəri qışın sərt soyuğuna şahid olub. Lakin zamanla qəlblər eyni anda titrəyib, göz yaşları eyni anda süzülüb, heç bir fəlakət qardaşlığı zərrə qədər sarsıda bilməyib. Beləcə, tarix həqiqətə ayna tutub. Aynaya baxan müdriklər anlayıb ki, əsl güc mərhəmət, birlik və sadiqlikdir.

**(davamı 8-ci səhifədə)**

(əvvəli 1-ci səhifədə)

Əsrlər boyu eyni ağrını paylaşan, eyni ümidə sarılan, tale yollarında birgə addımlayan iki qardaş xalq - Azərbaycan və Türkiyə zamanın sərt küləklərinə qarşı həmişə çiyin-çiyinə dayanmağı bacarıb. Bu qardaşlıq sınaqlarla möhkəmlənən, kədərdə, sevincdə bərkiyən mənəvi bağdır. "Bir millət, iki dövlət" anlayışı siyasi ifadə olmaqla yanaşı, xalqlarımızın gündəlik həyat, düşüncə tərzinə, yaşam fəlsəfəsinə çevrilib. Danılmaz həqiqəti zaman-zaman müxtəlif hadisələr sübut edib. 2023-cü ilin fevralında baş verən fəlakətli Kahramanmaraş zəlzələsi mənəvi bağların sarsılmaz olduğunu bir daha bütün dünyaya göstərdi. Minlərlə can qurban oldu, şəhərlər dağıldı, insanlar yurd-yuvasız qaldı. O qaranlıq günlərdə Azərbaycanın göstərdiyi dəstək zəruri ehtiyaclara verilmiş cavab deyildi, vicdan çağırışı, könüllərin vəfa imtahanı idi. Köməyə çatan qardaşlıq əli çarəsizliyə dayaq, zülmətə ümid işığı idi. Dağıntılar altında çırpınanların həyatını qurtarmağa çalışan xilasedicilərin, insan ruhunu ayaqda saxlamağa çalışan həkimlərin, qayğı deyil, ümid paylayan könüllülərin simasında xalqın hafizəsi, iradəsi, ağrısı və etibarı əks olunurdu. Onlar Kahramanmaraşın küçələrində qardaşlıq körpüsü qururdular. O gün yola düşən yardım karvanları keçmişə sadiqlik, bu günə hazırlıq, gələcəyə inam andı idi, Kahramanmaraşa maddi-mənəvi sabitlik daşıyırdı. İllər ötdü, yaralar qaysaq bağladı. İki qardaş xalqın torpağa səpdiyi ümid toxumları kök saldı, cücərdi və "Azərbaycan" məhəlləsi adı ilə tarixə yazıldı. İyunun 19-da Kahramanmaraşda "Azərbaycan" məhəlləsinin açılış mərasimi baş tutdu. Bu qardaşlığın, birliyinin, əzmkarlığının ifadəsidir. Məhəllənin hər küçəsi sarsılmaz dostluğun izlərini daşıyır, hər evi sevginin, həmrəyliyin sığınacağıdır. Azərbaycanın Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən 1194 mənzildən ibarət 68 yaşayış binasının, Heydər Əliyev adına müasir ibtidai məktəbin, uşaq bağçası, mədəniyyət mərkəzi və ticarət obyektlərinin inşası zəlzələdən zərər çəkmiş minlərlə ailəyə yeni həyat sevincini bəxş etməklə yanaşı, Azərbaycan və Türkiyə xalqları arasındakı qardaşlıq və həmrəylik bağlarını daha da möhkəmləndirir. Prezident İlham Əliyevin açılış mərasimində qeyd etdiyi kimi, Azərbaycan və Türkiyə yalnız xoş günlərdə deyil, ən ağır sınaq və çətinlik anlarında da bir-birinə dəstək olan, gücünü artıran qardaşlardır. Şuşa Bəyannaməsi ilə müttəfiqlik səviyyəsinə yüksələn Türkiyə-Azərbaycan əməkdaşlığı yalnız regionun deyil, beynəlxalq aləmin diqqət mərkəzində olan strateji birlikdir. Zəlzələdən sonra evsiz qalan minlərlə ailənin təhlükəsiz və dayanıqlı infrastrukturla təmin olunması sosial bərpa və psixoloji adaptasiya baxımından vacib rol oynayır. Məktəb, bağça və mədəniyyət mərkəzlərinin layihəyə daxil edilməsi isə sosial inteqrasiyanı və icma birliyini gücləndirmək məqsədi daşıyır. Bu, müasir urbanizmdə "kompleks yanaşma" kimi tanınan planlaşdırma prinsipinə əsaslanır. Eyni zamanda, 799 qeyri-yaşayış (ticarət) obyektinin nəzərdə tutulması həmin ərazidə iqtisadi fəallığın bərpasına və əhalinin məşğulluq imkanlarının artırılmasına yönələn mühüm iqtisadi strategiyadır.

"Əsrin fəlakəti" kimi səciyyələndirilən zəlzələnin nəticələrinin aradan qaldırılması prosesi tarixi yaddaşda 1915-1916-cı illərdə Çanaqqala müharibəsinin və 1918-ci ilin sentyabrında Bakının azad edilməsinin təkrarı kimi dəyərləndirilə bilər. Hər iki hadisədə Anadolu ilə Qafqaz türklərinin birgə mübarizəsi, qarşılıqlı dəstək və qardaşlıq ruhu mühüm yer tutmuşdur. Çanaqqala döyüşləri Osmanlı imperiyasının və onun müttəfiqi olan Azərbaycan türklərinin birgə mübarizəsinin simvoluna çevrilərək türkdilli xalqlar arasında ortaq tarix və taleyin formalaşmasına zəmin yaratmışdır. Eyni zamanda, 1918-ci ildə Bakı şəhərinin bolşevik və erməni silahlı qüvvələrindən azad edilməsi Azərbaycan və Türkiyə arasında siyasi və hərbi əməkdaşlığın mühüm dönəmi olmuşdur. 2020-ci ilin sentyabr-noyabr ayları arasında baş vermiş Vətən müharibəsində Türkiyənin Azərbaycana siyasi və mənəvi dəstəyi türklər arasında qardaşlıq münasibətlərinin müasir ifadəsi kimi qiymətləndirilmiş, ictimai rəy və hərbi təcrübədə özünü göstərərək, regionun geosiyasi mənzərəsini dəyişdirmişdir. Bu mənada qeyd etmək lazımdır ki, "Azərbaycan" məhəlləsinin inşası mürəkkəb və qlobal geosiyasi proseslərin fonunda yaranmış strateji həmrəylik örnəyidir. Azərbaycan-Türkiyə birliyi regional sabitlik və təhlükəsizlik üçün qlobal balansın formalaşmasına töhfə verir və gələcək nəsillərə nümunədir.

**Fidan ƏLİYEVA,**
**"Respublika".**

Respublika.- 2025.- 24 iyun (№ 128).- S.8.